# QARANLIĞI DİNLƏRKƏN

***(esse)***



**Ağalar MƏMMƏDOV,**
*fəlsəfə doktoru,*
*Xəzər Universitəsinin müəllimi*

Çox adam Qaranlığın nə olduğunu heç bilmir, o, yalnız gecəni tanıyır və gündüzdə yaşayır. O, gecəyə düşüb, amma Qaranlıqla heç üz-üzə gəlməyib, Qaranlığı heç düşünməyib, Qaranlığa heç baxmayıb da. Onun Qaranlıqla bircə alış-verişi var: qorxu.

Qaranlıqdan qaçıb, daim aydınlığa can atan insan əslində özündən qaçır, öz şəxsiliyindən, öz içindən qaçır; o, özündən qıraqdakı dünyaya, öz içindən bayıra, əşyalara, nəsnələrə sarı qaçır. Burada o, yalnız qəfil gecəyə düşəndə, dara düşəndə öz daxilinə çəkilir, Qaranlığına qərq olur.

Çox adamın yalnız gündüzü var, gecəsi yoxdu. Amma hər kəsin öz Qaranlığı var. Çünki hər kəs öz yuxusunu yatır.

Qaranlığımız Özümüzdür, aydınlığımız Mənimiz. Öz Məndən həmişə daha böyükdür. Mən Özün gündüzüdür, aydın olan üzüdür. Öz isə Mənin gecəsidir, Qaranlıq dibidir.

Keçmiş də, gələcək də Qaranlıqdır, aydın olan yalnız indidir.

Sonsuz Qaranlıqdan gəlib, sonsuz Qaranlığa gedən biz biranlıq aydınlıqlardan keçirik.

Sabah Qaranlıqdır, işıqlı olan səhərdir.

Günəşin aydınlığı ilə, ayın aydınlığı fərqlidi. Ayınkı aydınlıqdı, günəşinki apaydınlıq.

Günəşsizliyin Qaranlığı ilə aysızlığın Qaranlığı da fərqlidi. Aysız-ulduzsuz Qaranlıq zülmətdi, qapqaranlıqdı, orada heç nə görünmür və yaxud da “heç nə”nin özü görünür. Heçnənin, Yoxluğun qucağında hər kəs tənhadı.

“Heçnə” Qaranlıqdı. Aydınlığın “Hər şey”i Qaranlıqda “Heç şey”ə çevrilir. Çox Birə dönür Qaranlıqda.

Gündüz – hissə-hissədi, şey-şeydi. Gecə isə – tamdı, bütövdü. Elə ona görə də, əslində bir varlıq kimi gündüz yoxdu, amma gecə var!

Gündüz cismlər aydınlığı örtür və aydınlığın özü görünmür, gecə isə əksinə, Qaranlıq cismləri örtür və cismlər görünmür, amma Qaranlıq özü görünür.

Qaranlıqda görünməyən – cismlərdir, Qaranlığın özü isə görünəndir.

Buna görə də Qaranlıq görünməmək deyil, göstərməməkdi.

Qaranlıqda bizə Dünya verilir, aydınlıqda dünyadakı əşyalar.

Qaranlıqdakı dünya ayrı dünyadır, aydınlıqdakı dünya ayrı.

Qaranlıq – cismləri gizlədərək, örtərək onları “yox edir”: sankiboşluq, sankiyoxluq yaradır. Boşluq və yoxluq isə insanı qorxudur və təfəkkürü qamçılayır. Buna görə də, elm gündüzü, fəlsəfə, poeziya və din gecəni sevir.

Qaranlıq – insanı özünə, öz içinə baxmağa çağırır. Obyektiv elmilikdə insanın subyektiv daxililiyi yoxdur.

Qaranlıq passivdir, buna görə də Qaranlıqdakı insan aktiv; aydınlıq aktivdir, buna görə də

aydınlıqdakı insan passiv.

İrrasionallığın simvoludur Qaranlıq, həm də azadlığın. Daim düşünə, uydura, yarada, xəyal edə bilərsiniz Qaranlığı. Aydınlığın bu şansı yoxdur. Gündüz hər tərəf aydınlananda gecə xəyalları elə bil daşa dəyir. Aydınlıq realizmdir, Qaranlıq romantizm. Romantik şair Novalis deyirdi ki, "Gerçəkliyi qaranlıqlaşdırın, onda o, daha aydın görünəcək".

Aydınlıq mənə sarı gələn yoldur, Qaranlıq məndən gedən yol. Aydınlıq dünyanın mənə yoludur, Qaranlıq mənim dünyaya yolumdur.

Gündüzün dünyası kosmoloji dünyadır, az qala insansız dünyadır. Dünya "olduğu kimi"dir gündüz. Gecənin dünyası isə antropoloji dünyadır, insanın yaratdığı dünyadır. Dünya – insanın məhsulu kimidir gecə.

Qapalı qutuda Qaranlıq var. Biz işığı söndürmədən də, yalnız onun qarşısını kəsərək Qaranlığı yarada bilərik, qapalı qutu düzəldərik. Amma qutunu açıb Qaranlığı görmək istəsəydik, Qaranlıq – qutunun açdığımız yerindən uçub gedərdi.

Zvank Tse (Çjuan Çjı) belə bir məsəl çəkir. Yatıb yuxuda gördüm ki, kəpənəyəm. Oyanıb / Yuxulayıb ("jiao" çin dilində iki mənalıdır) gördüm ki, Zvank Tseyəm. İndi görəsən, mən Zvank Tseyəm, yuxuda kəpənək olduğumu görürdüm, yoxsa, kəpənəyəm, yuxuda Zvank Tse olduğumu görürəm. Sualım budur: Qaranlıq işığın yoxluğudur, yoxsa, aydınlıq işığın varlığı?

Əslində dünyamızın fonu Qaranlıqdı, günəş işığı, ay işığı, ulduzların işığı, şimşəyin işığı, şam işığı – bunlar hamısı Qaranlıq fonda parıldayırlar. Sadəcə günəşin işığı güclü olduğuna görə, bütün Qaranlıq fonun özünü müvəqqəti olaraq görünməz edir və bizdə elə bir duyğu yaradır ki, sanki keçici olan Qaranlıqdı, qalıcı olan aydınlıq. Halbuki, işıq Qaranlığa qonaq gəlir. İnsan Qaranlıqdadı. Buna görə də, o, işığı sevir. Yaxud belə də deyə bilərəm: İnsan işıq saydıqlarını sevir.

Aydınlığın səbəbi günəşdir, bəs Qaranlığınkı nədir? Qaranlığın günəş kimi bir səbəbkarı olmadığı üçün, aydınlıq qalıcı, Qaranlıq ötəri hal sayılıb. Əslində isə, günəş dünyanı işıqlandırır, dünya özü Qaranlıqdır.

Aydınlığın boyu cismlərin boyu qədərdir, Qaranlıq isə cismlərin o tayına keçib gedir, cismlərdən böyük görünür. Aydınlıq cismlər boydadı, Qaranlıq isə hüdudsuzdur. Ona görə də, aydınlıqda cismlər adamı sehrləyə, cəzb edə, düşündürə bilər, Qaranlıqda isə Qaranlığın özü. Əslində aydınlıq yoxdur, cismlər var, aydınlıqda görünən cismlər. Qaranlıq isə özü var!

Qaranlıq göydür, aydınlıq yer.

Qaranlıq aydınlıqdan daha böyük, daha dərindir, daha tutumludur. "Qaranlıq" sözünün hərfi mənası da "böyük" deməkdir. Gecə gündüzdən daha anlamlıdır. Aydınlıq sərhədli, Qaranlıq sonsuzdu. Qaranlıqda yazılmış əsərlər var, onları Qaranlıqda oxumaq lazımdır.

Şair Qaranlığı duyur, bəstəkar Qaranlığı eşidir, rəssam Qaranlığı görür, filosof Qaranlığı düşünür, dindar Qaranlığı uydurur.

İnsanların Qaranlığını iki cür tanıya bilərsiniz: Onları Qaranlıqdan işığa çıxararaq, günə çıxararaq, onlara imkanlar, səlahiyyətlər, bir sözlə, onlara güc bəxş edərək. Amma "İnsanların üzünü işıqda, xarakterini Qaranlıqda tanıya bilərsən", deyir qədim bir kəlam. Çünki insanın Qaranlığı Qaranlıqda üzə çıxır həm də; adamın Qaranlığını o, dara (gecəyə!) düşəndə də tanımaq olur.

Qaranlıqda hər şey gizlənə bilər, Qaranlığın boynuna hər şeyi yıxmaq olar. Buna görə də, Qaranlıq üzüyola, feminin, təslim olandır. Qaranlıq amorf yumşaqlıqdır. Görünür, qədim Çin filosofları "Qaranlığın cinsiyyəti qadındır" deyəndə yanılmayıblar.

Qaranlıq qara, qaramat deyil, əksinə, Qaranlıqda apaydın, işıqlı düşüncələrə gəlib çıxmaq

olar. Qapqaranlıqda apaydınlıqda oturmaq olar. Gündüzün anası gecədir.

Divlər, oğrular, əqrəblər Qaranlıqda gizlənə-gizlənə Qaranlığı bədnam etdilər. İndi Qaranlığı təmizə çıxarmaq Qaranlığı aydınlatmaqdan daha çətindir. Amma Qaranlıq qara qüvvələrin gizlənməsi üçün deyil. Necə ki, şairlər deyiblər: "Qəfəslər quşlar üçündür, amma quşlar qəfəslər üçün deyil".

Aydınlıq ağ rəng kimi qaytararaq göstərir, Qaranlıq isə qara rəng kimi udaraq gizlədir.

İşıqla da örtmək olar. Günəş ulduz qardaşlarını öz işığıyla kölgədə qoyduğu kimi.

Hind fəlsəfəsinin ustadlarına "Quru" adı verirdilər. Quru Qaranlıqdan çıxardan deməkdir. Müəllim tələbəsini Qaranlıqdan çıxardandır. Əbədi gündüz ola bilmədiyi kimi, əbədi aydınlıq da illüziyadır. Yeni cavabların işığı yeni Qaranlıqları göstərmirsə, o, tələdir.

Biz dahilərə ona görə borcluyuq ki, onlar bizə görmək üçün aydınlıq, düşünmək üçün Qaranlıq verib gedirlər.

Fəlsəfədə işıq yeni Qaranlıqları göstərmək üçündür. Filosof üçün hər aydınlığın Qaranlığı vardır, kütlə üçün "hər gecənin gündüzü" olduğu kimi. Apaydınlıqda görmək olmaz, kölgə də gərəklidir.

Kölgə Qaranlığın (ikiölçülü) şəklidir, özü deyil.

Qnostisizmə görə insan dünyada həbsdədi, başqa sözlə, Qaranlıqda çıxış yolu bilikdir (qnosis), bu bilik işıqdır.

Hər zaman doğru bilik işıq sayılmışdır. Yalan yalançı işıqdır.

İnsanı düşündürən – Qaranlıqdı. Həqiqətin tapılması gecənin qurtarması, səhərin açılmasıdır. Bilik hərfi mənada da yolgöstərici işıq kimidir.

Aydınlıqda özünü itirən insan, Qaranlıqda özünü tapır. İnsan Qaranlıqdan doğulur.

Biz yalnız gecələr özümüzünük. Gündüzlər həm də başqalarınınıq.

Qaranlıqda biz gözləyirik, aydınlıqda isə axtarırıq.

Qaranlıq ümidlərimizin və qorxularımızın ana bətnidir. Ümidin və qorxunun birləşdiyi hər şey Qaranlıqdır.

Qaranlığın qorxululuğu onun gözlənilməzliyindədir. Gözlənilməz hər bir şey bizim üçün Qaranlıqdır. İnsanlara gözlənilməz sürprizlər edin, onda onlar Qaranlığı sevəcəklər, gələcəklərindən daha az qorxacaqlar.

Gündüz hamının dünyası bir və eynidir, gecə hərənin öz dünyası var. Qaranlıq danışır, aydınlıq göstərir. Aydınlığı görə bilirsən, Qaranlığı isə dinləməlisən. Görünür, qədimdə peyğəmbərlər allahı elə buna görə məhz "eşidirdilər".

Qaranlıq təkcə alıb aparan deyil, həm də gətirib verəndi. Qaranlıq – başlanğıcın anasıdır.

Hər halda Qaranlıq haqqında aydın danışmaq olmaz. Qaranlığa işıq salmaq olmaz. Çünki onda Qaranlıq yox olar.

Əslində, ümumiyyətlə Qaranlıqdan qıraqda – yəni aydınlıqda dayanıb, Qaranlıq "haqqında" da danışmaq olmaz, gərək Qaranlığın "içində" olasan, gərək Qaranlıqda dayanıb, Qaranlıqdan danışasan.

Qaranlıqdan gərək yarımqaranlıq, mistik stildə danışasan. Qaranlıq özü bunu bizdən tələb edir.

Susa bilmək brilliantdı. Brilliant – danışa bilməmək deyil, danışmaq istəməmək deyil, danışacaq sözü olmamaq deyil. Əksinə, min dəfə əksinə! Məhz danışmaq istəyəndə, deməyə sözü

olanda susmağı bacarmaq lazımdı. Brilliant susmaq budur. O biri susmaqlar heç gümüş də deyil.

Qaranlığın bir adı var, aydınlığın min adı.

Amma mən onun adını sizə deyə bilmərəm... Gərək susmağı bacarasan. O, sən susanda yalnız sənin olur...

Onun adını heç Məcnun da bilmirdi, sadəcə Leyli adı vermişdi ona.

Lao Tsenin Dao işarəsi kimi, Leyli də Qaranlığın adı deyil, simvolik işarəsidi eləcə.

Qaranlıq – Leylidir.

"Leyli" – Qaranlığın simvollarından biridir.

Qeysi dəli Məcnun eləyən Qaranlıq Leylidi.

Qaranlığın aşiqi gündüz üçün dəlidir. Qeysə Məcnun adı gündüz verilib, aydınlıqda, aydınlığın gözü ilə, aydınlığın işığında.

Aydınlıq adamı dəli eləməz, ağıllı eləyər. Aydınlığın ağıllısı da Qaranlığı sevməz.

Məcnunun (dəlinin) dəyərini bilən bircə nəfər var – Leyli (Qaranlıq).

Qaranlıqda insan dış dünyanı qavramaq üçün ən güclü vasitəsini, görmə qabiliyyətini itirir. Qaranlıqda adam kor olur. Aşiq Məcnun kor idi, çünki o, Leylidə idi, Qaranlıqda. Aşiqlik kor olmaqdı, eşq – Qaranlığı sevməkdi. Bütün sevilənlərin adı Leylidi.

Qaranlıqda ilk dəfə qulaqlar gözlərdən daha əhəmiyyətli olurlar. Qaranlıqda bayquş ulartısı da işıqdır.

"Minervanın bayquşu Qaranlıq çökəndən sonra uçmağa başlayır" (Hegel). Çünki fantaziya öz qanadlarını yalnız Qaranlıqda aça bilər. Gündüz fantaziyanın uçuşu üçün çox dardır.

"Gecə yatmaq üçündür", o deməkdir ki, xəyallar oyaqlıqda ağlın yuxusudur.

Bizə gecə verilən dünya ilə gündüz verilən dünya fərqlidir: Görünən (vizual) dünya ilə eşidilən (auditiv) dünya. Fəlsəfədə bu belə ifadə edilir: qavranan (perceptiv) dünya, düşünülən (intelligible) dünya. Düşünülən dünya həmişə qaranlıqdır. İnsan – Qaranlıq dünyanın günəşidir. Qaranlıq – bir dünya kimi yalnız insan üçün var.

Atəşpərəstlikdə Qaranlıq şər mənbəyidir, qədim Çin dünyagörüşündə sirr mənbəyi. Bəlkə də şeytan allahdan daha sirrlidir.

Qərb gündüzsevərdir, Şərq gecəsevər. Qaranlıqda dünya böyüyür. Elektriklə işıqlandırılmış dünya kiçilir.

Gecə zehin boşalır və bir nöqtəyə zillənir, qadaqlanır. Gündüz bolluqda olan şüurumuz dağınıqdı, gecə isə yoxsulluqda diqqətli.

Hər gecə – bir gündüzün gecəsidir.

Hər gündüz də – bir gecənin açılışıdır.

Biz gecəni keçiririk, bəs gecə nəyi keçirir? Dünənki bizi. Görünür, gecə ilə "gec"ikmək və "keç"mək arasında əlaqə olub. Gecə geyimlidi, gündüz çılpaq. "Geyim-keçim"də də gecəyəbənzər nəsə var. Gecə gündüzdən cazibədardı, hicab çimərlik paltarından daha çox cazibə oyatdığı kimi.

Gecələr adamın varı yadına düşmür, yoxu yadına düşür. Daha doğrusu, varının yoxluğu. "Şəbi-hicran" deyən Füzulini anlaya bilirik yavaş-yavaş.

Gündüz hamınındı, gecə hərənin. Hamının eyni gündüzü var, hərənin öz gecəsi. Gecələr hamımız öz vətənimizdəyik.

Gecələr cümlələrarası intervallar kimidir. Hər nöqtə bir gündüzün sonudur.

Qaranlıq iki üzlüdür. O, ya səhərə açılır, ya da heç vaxt öz səhərini tapa bilmir... Ölüm – gündüzü gəlib çıxmayan gecəyə bənzəyir.